

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# ŞAİRDƏN ALİMƏ...

## (Yusif Nəğməkarın "Nizami demiş" lirik poeması haqqında)

**Ədəbiyyat aləmində bir-birinin uğurlarına sevinənlər az deyil. Təbii ki, burada yazıçı dünyasına, şəxsiyyətinə xas olan bir insani hissin yaşadığı məlum. Bir-birinin sevincinə, ədəbi uğurlarına qətiyyən paxıllıq etmədən, qısqanmadan böyük ürək açıqlığı ilə öz münasibətini bildirmək yazıçı qəlbinin böyüklüyündən gəlir... Xatırlayıram Mehdi Hüseyn İsmayıl Şıxlının "Dəli Kür" romanının əlyazmasını oxuyub uşaq kimi sevinməyini. Ona qədər İsmayıl Şıxlının bütün yazdıqlarına tənqidi münasibətini gizlətmirdi Mehdi müəllim. Ustad Rəsul Rzanın Məmməd Arazın "Atamın kitabı" poeması haqqında məqaləsini xatırlayıram. Necə böyük ürək açıqlığı ilə qələmə alınmışdı. Rəsul müəllimin altmışıncı illərdə ədəbiyyata gələn gəncləri necə qoruduğu, onlara dəstək olması da dönə-dönə xatırlanır. Böyük şairimiz Bəxtiyar Vahabzadə isə bu sahədə çoxlarına örnək idi. Bəxtiyar müəllim ədəbiyyatımızın ən gözəl nümunələrini yaradan şair dostlarını birinci təbrik edirdi, hətta istedadlı cavanlara xeyir-dua verib, onları ruhlandırırdı, qanadları bərkisin deyə uçuşa hazırlayırdı. Misallar çoxdur. Şair Yusif Nəğməkarın professor, müasir Azərbaycan tənqidinin, ədəbiyyatşünaslığının və dilçiliyin avanqardlarından olan Nizami Cəfərova poema həsr eləməsi də, zənnimcə, bu ənənə ilə bağlıdır.**

Nizami Cəfərov və onun elmi, tənqidi yaradıcılığı barədə mən də bir həmkarı kimi vaxtilə öz ürək sözlərimi yazmışam. Nizami Cəfərov - ədəbi və ictimai sferada kifayət qədər nüfuz qazanan bu şəxs, yazılarıyla da, çıxışlarıyla da həmişə maraq dairəsində olub və hələ ki, bu qarşılıqlı ünsiyyət davam edir. Onu sevənlər və ona rəğbət bəsləyənlər mütləq dərəcədə əmindirlər ki, bu adam istər peşəkar alim kimi məşğul olduğu sahədə - dilçilikdə, istərsə də tənqidçi-ədəbiyyatşünas kimi fəaliyyət göstərdiyi ədəbi prosesdə aparıcı şəxslərdən biridir. Mən də öz həmkarımın istər Azərbaycanda, istərsə də bütün türk aləmində tanınmasını, sevilməsini və bütün bunlara səbəb olan elmi uğurlarını, peşəkar tənqidçi fəaliyyətini təqdir etmişəm. Yusif Nəğməkar isə bir şair kimi Nizamiyə poema həsr edib və böyük şairimiz Nəriman Həsənzadədən sonra poeziyada Nizami Cəfərov obrazını yaratmağa can atıb. Və Yusif Nəğməkar öz poemasında da bir misraya belə sığışdıra bildiyi səmimiyyətilə Nəriman müəllimin əsərini xatırlamağı özünə borc bilərək yazıb: "Nəriman müəllim Həsənzadənin Şeiriylə mükəmməl vəsf olunmusan!" - əlbəttə, istər Nəriman müəllim olsun, istərsə də Yusif Nəğməkar, əsas məqsəd heç də o deyil ki, bir alimi tərifləyib, ona ucdantutma bütün "parlaq" təşbehləri yağdırasan. Bir insanı - o ki tanınmış ola - göründüyündən daha artıq və daha ifrat tərif selinə qərq eləmək zamanı çoxdan bitib. Əsas məsələ, həmin o insanın - tanınmış alimin mənsub olduğu xalqa, millətə nə dərəcədə bağlılığı, onun şəxsiyyətində təzahür edən xəlqiliyi, vətənsevərliyi, öz dövlətinə, öz müstəqil respublikasına nə dərəcədə sədaqətli olmasını və onu düşündürən problemlərə münasibətini yazıya gətirəsən. Yusif Nəğməkarın poemasında məhz bu çalarlar əks olunub. Təbii ki, Yusif Nəğməkarın poemasında Nizami Cəfərov obrazı təkcə bir şəxsiyyətin obrazı deyil, həm də ünlü, öz xalqının başını ucaldan Azərbaycan alimlərinin ümumiləşdirilmiş obrazıdır.

Hər bir insanın, konkret olaraq tanınmış bir alimin məlum tərcümeyi-halı, uşaqlığı, gəncliyi, təhsil illəri, təsirləndiyi elm və sənət adamları və sonra da müstəqil, özünəməxsus yolu var, bu yol indiki zamanla gələcək arasında bir körpüdür. Nizami Cəfərov onun bir insan və alim kimi yetişməyində, formalaşmasında böyük rolu olan ustadları haqqında silsilə yazılar yazıb. Bu yazılarda indi mənim də, həmkarlarımın da minnətdarlıqla xatırladığımız Mir Cəlal müəllimin, Muxtar Hüseynzadənin, Ağamusa Axundovun, Tofiq Hacıyevin, Məmmədağa Şirəliyevin, Bəxtiyar Vahabzadənin, Nəriman Həsənzadənin, eləcə də onlardan bir neçə nəsil sonrakı Yusif Nəğməkarın və digər qələm adamlarının obrazları canlandırılıb. Belə portret yazılar unudulmamış insanların daxili, mənəvi, psixoloji aləmini - ALİM-İNSAN vəhdətini onlardan sonra gələn nəslin etirafı kimi səsləndirir.

**Mürəkkəbi gecə, qələmi işıq,**
**Sübhün dastanıdır yazdığı əsər.**
**Bir palıd kimidir, kökünə aşiq,**
**Kökü bilinməyən budaqdan həzər!**

**Yaddaşı qədimdir, yozumu təzə,**
**Hər fikir dolu yük daşıya bilməz.**
**Əsilsiz cümləni ha bük, ha bəzə,**
**Kök üstə bitməyən yaşaya bilməz.**

**Boy atıb yaşayır xarakterində**
**Mehdi Hüseynlə İsmayıl Şıxlı.**
**İşıqdı ilk andı, nurdu mabədi,**
**Nə təb usanası, nə qəlb doyası.**
**Yolunda çırağa dönmüş əbədi**
**Ustad Bəxtiyarın xeyir-duası.**



Nizami Cəfərovun dilçi alim və tənqidçi-ədəbiyyatşünas və Azərbaycanşünas kimi fəaliyyəti göz qabağındadır. Bunları bir-bircə sadalamaq, təhlil eləmək istəməzdik, görünən kəndə nə bələdçilik? Yəni, bu xüsusda hətta onun müəllimlərinin də yazıları, fikir və mülahizələri ilə tanışıq. Təbii ki, bu xüsusda yenə yazacaqlar, çünki onun Azərbaycanşünaslıq və türkologiya ilə bağlı sıx-sıx məqalələri və monoqrafiyaları, müasir ədəbiyyatla bağlı maraqlı fikirləri yalnız yazıldığı illərin hüdudları ilə məhdudlaşmır. Amma şeir, bədii əsər bütün bunları əks etdirə bilməz, çünki şeir elmdən fərqli olaraq bədii sözün dilmancıdır. Bədii sözdə, şeirdə daha çox OBRAZ görünməlidir və Yusif Nəğməkarın poemasında da məhz bu amil nəzərə alınır. Nizami Cəfərovdan zorla bir Aristotel, ya bir Krımski yaratmaq mövcud olana parodiya olardı. Amma Nizami Cəfərov ilk növbədə, öz xalqının, öz millətinin alimidir, təmiz azərbaycanlıdır, bütün varlığı ilə Azərbaycana və onun elm aləminə bağlı olan bir insandır. Və Yusif Nəğməkar da onun obrazını məhz bu aspektdə rəsm edir:

**Üçrəngli bayraq önündə**
**Xəyala dalmış Nizami.**
**Bayraq arzuları qədər**
**Sanki ucalmış Nizami.**

**Baxışı sancılır göyə,**
**Al qırmızıya bürünür.**
**Onun şərqli nəzərində**
**Dünya yamyaşıl görünür.**

**Vətən ağacı göyərir**
**Eşqinin hər budağında.**
**Azərbaycan dövlətinin**
**Himni ötür dodağında;**

**Məğrur görkəm verir ona**
**Fərəhdən dolan gözləri.**
**Üzeyirin musiqisi,**
**Əhməd Cavadın sözləri.**

**Niyə poemanın adı "Nizami demiş"dir? Təbii ki, Yusif Nəğməkar Nizami Cəfərovun yazılarını diqqətlə oxumuş, çıxışlarını dinləmişdir. Bu dinləmələr ədəbi ictimaiyyətin və oxucuların marağından, riqqətindən kənarda deyil. Doğrudan da, Nizami Cəfərovun çıxışları həm elmi sanbalıyla (söhbət şifahi nitqdən gedirsə), həm də emosionallığı ilə seçilir. Heç bir aktyorluq jestinə əl atmadan o, auditoriyanı nitqindəki səsi, sözünün sanbalı və bu prosesdə mütləq maraqlı və orijinal bir fikir söyləməsi ilə diqqəti cəlb edir. Xüsusilə, ədəbiyyat haqqında danışanda heç bir gurultuya, bəlağət leksikasına enmir, aydın, sadə, amma son dərəcə məntiqi şəkildə bir şairin, ədibin obrazını canlandırır. Görünür, həssas və istedadlı şair Yusif Nəğməkar da elə bu çıxışların yaxşı mənada heyranı olmuş və bu heyranlığın nəticəsi olaraq öz oxucularını da heyran edə biləcək tutarlı, orijinal bir əsər yaratmışdır. Ümumilikdə Yusif Nəğməkarın Nizami Cəfərova həsr etdiyi poeması bir alimin, tanınmış bir insanın bədii portretini tamamlayır. Nizami Cəfərov bir insan: müəllim, alim, tənqidçi, dilçi, türkoloq və azərbaycanşünas kimi poeziyada öz bədii təcəssümünü tapır. Və bu qeydimi Yusifin bu misralarıyla bitirirəm: "Sözü özündədir, özü sözündə; Sözünə bənzəyər bənzərsizliyi".**